**AZƏRBAYCAN RESPUBLIKASI TƏHSIL NAZIRLIYI**
**BAKI DÖVLƏT UNIVERSITETI**

*Əlyazma hüququnda*

**ŞƏFAYƏT FƏRƏC OĞLU FƏRƏCOV**

# ERMƏNİSTAN SSR-DƏ AZƏRBAYCANLILARIN DEMOQRAFİK VƏZIYYƏTI (1920-1980-CI ILLƏR)

**İxtisas: 5503.02. – Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim olunan dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2014**

***Dissertasiya Bakı Dövlət Universiteti Tarix fakültəsinin «Azərbaycan tarixi (təbiət fakültələri üzrə)» kafedrası nəzdində «Dünya azərbaycanlıları: tarixi-demoqrafiya» Elmi-Tədqiqat Laboratoriyasında yerinə yetirilmişdir.***

**Elmi rəhbər**:
Tarix üzrə elmlər doktoru **H.Y.Verdiyeva**

**Rəsmi opponentlər:**
tarix üzrə elmlər doktoru, professor **K.K. Şükürov**
tarix üzrə elmlər doktoru, professor **L.L. Həsənova**

**Aparıcı təşkilat**: **Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Vətən tarixi» kafedrası**

Müdafiə 27/09 2014-cü il saat ____ Bakı Dövlət Universiteti Tarix fakültəsi nəzdində tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küç. 23.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «_____»_________ 2014-cü ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə elmlər doktoru, professor S.Y.Süleymanova**

## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Azərbaycan torpaqlarının Rusiya imperiyası tərəfindən işğal edilməsi, xalqımıza qarşı törədilən soyqırım siyasətinin tarixi faktlarla tədqiq edilməsi, Azərbaycan tarixi üçün ən etibarlı və reallığı obyektiv əks etdirən mənbələr əsasında xalqımızın başına gətirilən müsibətlərin dünya ictimaiyyətinə çatdırılması bu gün milli tarixşünaslıq qarşısında duran ən aktual məsələdir. Azərbaycanın tarixi ərazisi olan, azərbaycanlı əhalisinin sıxlığına görə birinci yerdə olan İrəvan bölgəsində və digər Qərbi Azərbaycan ərazilərində hal-hazırda bir nəfər belə azərbaycanlı yaşamır.

Azərbaycanlılara qarşı törədilən cinayətkar siyasətə Ümummilli Lider Heydər Əliyev 1997-ci il 18 dekabr «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» və 26 mart 1998-ci il tarixli «Azərbaycanlıların soyqırımı haqqında» fərmanlarında hüquqi-siyasi qiymət vermişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 30 mart 2004-cü ildə «31 Mart azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciət»ində, 23 fevral 2007-ci il «Xocalı soyqırımının 15-ci ildönümü münasibətilə Azərbaycan xalqına müraciət»ində, 29 mart 2008-ci il «31 Mart azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciət»ində azərbaycanlılara qarşı törədilən soyqırıma hüquqi-siyasi qiymət vermiş və qeyd etmişdir ki, «artıq son vaxtlar dünya siyasətində böyük təsiri olan dövlətlərin rəhbər dairələri, geniş ictimaiyyət, beynəlxalq təşkilatlar Azərbaycan həqiqətlərini daha tez-tez etiraf edir, Ermənistanı açıq-açığına işğalçı ölkə kimi bildirirlər. Azərbaycan və qardaş Türkiyənin rəsmi və ictimai dairələri tərəfindən saxta erməni soyqırımını ifşa edən tarixi sənədlər beynəlxalq təşkilatlara təqdim olunur. Ümid edirik ki, dünya dövlətləri tarixi həqiqətləri biləcək və türk xalqlarının haqq səsi qələbə calacaqdır.

O zaman Mustafa Kamal Atatürkün «yurdda sülh, cahanda sülh» prinsipi, dünya şöhrətli siyasətçi, Ümummilli Lider Heydər Əliyevin «Qafqazı sülh zonasına çevirmək» arzusu qələbə çalar».

Dünya tarixində əhalinin öyrənilməsi bir problem kimi mürəkkəb təkamül yolu keçmiş və müasir bilgilər sistemində özünəməxsus yer tutmuşdur. Əhali sosial kateqoriya olub, «insan-insan çoxluqu – əhali əlaqəsindən

ibarətdir».[1] Əhali tarixinin predmeti əhali həyatının problemləri olduğu üçün, araşdırdığımız mövzu bilavasitə əhalinin obyektinə aiddir. Tədqiq olunan mövzunun çətinliyi və özünəməxsusluğu belə bir reallıqla bağlıdır ki, əgər əhali məsələsi XVIII əsrdən etibarən Qərbi Avropada və XIX əsrdən etibarən Rusiyada öyrənilirdisə, Azərbaycan Respublikasında bu elm sahəsi araşdırmalardan uzaq bir obyekt olaraq qalmaqda davam edirdi. Belə ki, ölkədəki sovet totalitar rejimin elmin qarşısına qoyduğu tələblərə cavab vermədiyi üçün əhali problemi məsələlərinin öyrənilməsi uzun illər məqsədəuyğun hesab edilməmiş, burjua təzahürü, imperializm elementlərinə meyllilik kimi qəbul edilmişdir. Yalnız stalinizm nisbətən mülayim partokrat rejimlə əvəz olunduqdan sonra XX əsrin ikinci yarısından sonra əhali məsələlərinin öyrənilməsi sovet elmində mümkün oldu.[2] Həmin dövrdə Azərbaycan elmində də bu sahədə müəyyən tədqiqatlar aparılsa da,[3] biliklər sisteminin tələbinə uyğun əhali problemlərinin öyrənilməsi yalnız postsovet dövründə mümkün olmuşdur.[4] Məhz ölkəmiz XX əsrdə ikinci dəfə müstəqillik əldə etdikdən sonra və Respublika tarixində ilk dəfə olaraq Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr 290 saylı sərəncamı ilə Azərbaycan Respublikası Demoqrafik İnkişaf Konsepsiyanı qəbul etmiş və bununla da əhali probleminin konseptual şəkildə öyrənilməsinin labüdlüyü göstərilmişdir. Bu konsepsiyada demoqrafiya siyasətinin ana xəttinin mahiyyəti açıqlanmış və təkrar istehsal prosesini təmin edən şəraiti yaratmağın zəruriliyi gündəmə gətirilmiş və qeyd edilmişdir ki, «demoqrafiya siyasəti nəsillərin normal təkrar istehsalının ardıcıl surətdə həyata keçirilməsinin təmin edilməsinə yönəlmiş iqtisadi, sosial və hüquqi tədbirlər sistemindən

---

[1] Şükürov K. Azərbaycan əhalisi: özünəməxsus tarixi və qaynaqları. Bakı, 2004, s.23.

[2] Урманис М.У. Народонаселение. Исследования, пуслисистика. М, 1976; Болдырев В.А. Экономический закон населения при социализме. М., 1968; Бедный М.С. Демографические процессы и прогнозы здоровья населения М., Статистика, 1972; Васильева Э.К. Семья и ее функции. М., Статистика, 1975.

[3] Muradov Ş., Abbasov F. Müasir mərhələdə demoqrafiya siyasəti. Bakı, 1986.

[4] Həsənova L.L. Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarsında (sovet siyahıyaalınmaları əsasında) – Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2005; Şükürov K.K. Azərbaycan əhalisi öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək) – Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2006; İbişov S.Ə. Quba xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat). – Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2007.

ibarət olmaqla, əhalinin bütün sosial-demoqrafik təbəqələrinin köklü mənafeyinə toxunur».

Respublikanın Demoqrafik İnkişaf Konsepsiyasının tələblərini əsas götürərək, Azərbaycanın tarixi torpaqları olan Qərbi Azərbaycan ərazilərində azərbaycanlılarının demoqrafik durumu problemini öyrənmək həyati zərurət kimi qarşıya qoyulmuşdur. Belə ki, tədqiq edilən problem Azərbaycan tarixşünaslığında kompleks şəkildə öyrənilməmiş və itirilmiş torpaqlar probleminin faciyəli səhifələri qapalı «qapılar» arxasında qalmışdır. Belə ki, 1828-ci il 21 mart fərmanı ilə I Nikolay Naxçıvan və İrəvan xanlıqlarını ləğv edərək, tarixi Azərbaycan torpaqlarında Erməni vilayətinin yaratdığını elan etmiş, daha sonra bu ərazi Çar Rusiyası quberniyalar sisteminə daxil olan İrəvan quberniyasının coğrafi-ərazi çərçivəsinə aid edilmiş, 1918-ci il mayın 29-da bu torpaqlarda yaradılmış Ararat Respublikasının, daha sonra Ermənistan SSR-in ərazisini təşkil etmişdir. Qərbi Azərbaycanın avtoxton əhalisi olan – azərbaycanlılar XIX əsrin sonlarında və XX əsrin sonlarına kimi mütəmadi olaraq ağır sınaqlardan çıxmaq məcburiyyətində qalmışlar. Belə ki, bölgədə 1905-1907-ci illər qırğını, 1918-1920-ci illərdə erməni- daşnak hakimiyyətinin millətimizə qarşı yürütdüyü soyqırım siyasəti, sovet hakimiyyəti hərbi müdaxilə gücü ilə bərqərar olduqdan sonra Azərbaycan xalqı öz tarixi torpağında Zəngəzur faciəsinə, 1948-1953-cü illər deportasiyasına, 1988-1991-ci illər etnik təmizlənməyə məruz qalmışdır. Əslində yuxarıda göstərilənlər bunu deməyə imkan verir ki, çar Rusiyasınının Azərbaycanı işğal etdiyi dövrdən tarixi torpaqlarımız qərbdən şərqə zaman-zaman azərbaycanlılardan təmizlənərək erməni əhalisinin məskəni edilmişdir. Bu proses bu gün də davam edir. Azərbaycan xalqının Qərbi Azərbaycanda üzləşdiyi fəciələrin sona qədər öyrənilməsinin labudlüyünü Ümummilli Lider Heydər Əliyevin 1997-ci il 18 dekabr fərmanı ilə təsdiqlənmişdir.

Yuxarıda göstərilənlərə əsaslanaraq, qeyd etmək lazımdır ki, araşdırılan tədqiqat əsəri Qərbi Azərbaycan azərbaycanlılarının demoqrafik vəziyyətini sovet tarixşünaslığı kontekstindən fərqli olaraq, Vətən tarixşünaslığının qarşıya qoyduğu tələbləri əsasında öyrənilmiş və Azərbaycan tarixşünaslığında mövcud olan boşluğu doldurmağa təşəbbüs göstərmişdir.

Tarixən azərbaycanlıların və onların əcdadlarının torpağı olan Qərbi Azərbaycan Vətən tarixinin yeni və ən yeni dövrünün faciəvi ictimai-siyasi proseslərinin nəticəsi olaraq, bolşeviklərin yaratdığı qondarma bir qurum olan Ermənistan SSR tərkibinə qatılmış və azərbaycanlıların demoqrafik vəziyyəti Azərbaycan milli tarixşünaslığının öyrənilmə obyekti olmamışdır. XX əsrdə Azərbaycan Respublikası ikinci dəfə müstəqillik əldə etdikdən

sonra Azərbaycan tarixşünaslığının postsovet konsepsiyasını əsas tutaraq göstərilən problem tədqiqat obyekti kimi öyrənilmişdir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiyanın xronoloji çərçivəsi özünəməxsus tarixi dövrü əhatə edir. Aşağı hədd Ararat Respublikasının daşnak hökumətinin hakimiyyəti erməni bolşeviklərinə təhvil verdikləri və bunun müqabilində Moskvanın təzyiqi ilə sovet Azərbaycanından qoparılan Zənqəzurun erməni tərəfinə verilməsi tarixi, yuxarı həddi isə XX əsrin 80-ci illərinin sonu ilə əhatələnir. Bu xronoloji dövr sovet sistemində baş verən ictimai-siyasi proseslərlə bağlı olmuşdur. Məhz bu xronoloji dövrdə Mərkəzi Qafqazda müdaxilə nəticəsində yeni inzibati-dövlət vahidlikləri yaranmış və sosializm düşərgəsində, o cümlədən keçmiş sovetlər birliyi məkanında başlayan ümumi böhran nəticəsində XX əsrin 20-ci illərində yaranmış inzibati-dövlət vahidliklər baş verən sosial-siyasi proseslər nəticəsində dağılmış və öyrənilən problem Azərbaycan milli tarixşünaslığında göstərilən xronoloji çərçivədə tədqiqat obyekti kimi qarşıya ümdə bir məqsəd olaraq qoyulmuşdur.

**Problemin öyrənilmə səviyyəsi.** Araşdırılan mövzu tədqiqat obyekti kimi bu günə qədər kompleks şəkildə öyrənilməmiş və diqqət mərkəzindən kənarda qalaraq, xüsusi tədqiqat obyekti olmamışdır. Doğrudur, problemin ayrı-ayrı aspektləri müxtəlif zamanlarda bir-sıra tədqiqatçılar tərəfindən öyrənilsə də, problem kompleks şəkildə araşdırılmamışdır. Tədqiqat obyekti olaraq problemin öyrənilməməsinin əsas səbəbi ondan ibarət olmuşdur ki, on illiklərlə sovet tarixşünaslığı və onu istiqamətləndirən erməni tarixçiləri və onların havadarları tarixi Azərbaycan torpaqları olan Çuxur-Səəd bəylərbəyliyi ərazisini – «Şərqi Ermənistan» kimi göstərmiş və Qərbi Azərbaycan torpaqlarını mənimsələşdirmək siyasətini əsas götürərək, ermənilərin burada köklü əhali olaraq dominant olduqlarını sübut etməyə çalışmış və bu baxımdan Qərbi Azərbaycan torpaqlarında tədqiqat dövrü çərçivəsində azərbaycanlıların demoqrafik vəziyyətini öyrənmək maraq dairəsindən uzaq olmuşdu. Belə ki, problemə tarixi obyektivlik mövqeyindən yanaşılsaydı bir çox gerçəkliklər -1905-1907- ci illər qırğını, 1918-1920-ci illər ərzində daşnaklar tərəfindən törədilən dəhşətli faciələr, – Zəngəzurun Ermənistan SSR-in tərkibinə qatılması qərarları, 1933- 1953-cü illərdə burada yaşayan azərbaycanlıların tanınmış ziyalılarına qarşı baş verən represiyalar, II Dünya müharibəsindən sonra sovet totalitar rejiminin milli məsələdə azərbaycanlılara qarşı tutduğu qəzəbli mövqeyi nəticəsində 1948-1953-cü illərdə Ermənistan SSR-dən azərbaycanlıların deportasiyası göstərilməli və bölgə əhalisində baş verən demoqrafik dəyişikliklərə təsiri izah edilməli idi. Lakin tarixi saxtalaşdırma mövgeyindən çıxış edən sovet

tarixşünaslığı tarixi reallığı qəbul etmək istəmədiyi üçün öyrənilən problem tədqiqat obyekti olaraq qapalı sahələr silsiləsinə aid edilmişdir. Bununla belə problemi öyrənərkən tədqiqat obyektinə bu və ya digər dərəcədə toxunulan ədəbiyyat araşdırılmış və qruplaşdırılmışdır.

Tədqiqat obyektinə müəyyən dərəcədə rus qafqazşünasları öz əsərlərində toxunmuş və XX əsrdə bölgədə baş verən demoqrafik dəyişikliklərin tarixi zəminini açıqlamışlar. Belə ki, S.Qlinka, V.Qriqoryev, N.Şavrov, İ.Şopen, A.Yeritsov velikorus şovinizmi mövgeyindən çıxış etsələr də, problemin öyrənilməsi üçün faktoloji baza rolunu oynamış Rusiya imperiyasının Qafqazda, həmçinin Azərbaycan torpaqlarında apardığı müstəmləkə siyasətinin mahiyyətini – ümumimperiya maraqlarına tabe edilən ərazi-coğrafi çərçivələrin dağılması – «qayçılama» və Rusiya hökmranlığının ölkədə bərqərar olmasında dayaq olan etno-konfessinal baza yaratmaq istiqamətlərini göstərmişlər.[1] Həmçinin yuxarıda adı çəkilən qafqazşünaslar tədqiqat obyekti üçün önəmli məsələ olan, Qərbi Azərbaycan torpaqlarına XIX əsrin birinci otuzilliyində ermənilərin kütləvi şəkildə köçürülmələrini göstərmiş və onların Azərbaycan torpaqlarına gəlmə olduqlarını təsdiqləyərək, XX əsirdə Qərbi Azərbaycanda baş verən demoqrafik dəyişikliklərin tarixi kökünü açıqlamışlar.

Çar Rusiyasının dövlət məmuru və tarixçisi V.L.Veliçkonun «Кавказ». Русское дело и междуплеменные вопросы»[2] tarixi əsəri ermənilərin mənşəyi, ailə qrupuna daxil olması, onların Cənubi Qafqaz ərazisinə köçürülüb yerləşdirilməsi, onlara torpaq, çörək, həyat verən xalqlara qarşı münasibəti, bölgədə «böyük erməni eqoizmini» süni surətdə yaradılması həqiqətlərinin açıqlanması sahəsində əvəzsiz bir tarixi əsərdir.

Başqa bir rus qafqazşünası P.Butkov[3] öz tədqiqatlarında problemə toxunmuş və tarixi Çuxur-Səəd bəylərbəyliyi torpaqlarında yaşayan

---

[1] Глинка С. Описание переселения армян аддербийджанских в пределы России. Москва, 1831; Григорьев В. Статистическое описание Нахичеванской провинции. С.-Петербург, 1833; Шавров Н. Новая угроза русскому делу в Закавказье. С.-Петербург, 1911; Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. С.-Петербург, 1852; Еринцов А.Д. Данные об армянском населении в России. – Известия Кавказского Отдела Императорского Русского Географического Общества, 1881, т.VII. №1.

[2] Величко В.Л. «Кавказ. Русское дело и междуплеменные вопросы». СПб., 1904.

[3] Бутков П. Материалы для новой истории Кавказа с 1722 по 1803 гг. СПб., 1869, ч.1-3.

əhalinin məşğuliyətini göstərməklə yanaşı, onların etnik tərkibinə toxunaraq azərbaycanlıların əksəriyyət təşkil etdiyini göstərmişdir.

Problemin ayrı-ayrı aspektlərinə inqilabdan sonrakı dövrdə XX əsr tədqiqatçıları da toxunmuşlar. Doğrudur, bu tədqiqatçılar araşdırmalar apararkən tədqiqat obyektini öyrənməyi qarşılarına bilavasitə məqsəd kimi qoymasalar da, onun müəyyən məqamlarına toxunmuşlar. Belə ki, T.Aristova[1] öz tədqiqatlarında XIX əsrin birinci otuzilliyində baş verən demoqrafik dəyişikliklərə toxunsa da məsələyə subyektiv mövqedən nəzər salmışdır.

Tədqiqat obyektinə müəyyən dərəcədə toxunan erməni tarixşünaslığının nümayəndələri də problemi öyrənərkən nəzər-diqqətimizdən uzaq düşməmişlər. Maraqlı cəhət ondan ibarətdir ki, bu tarixşünaslığın bir sıra nümayəndələri tədqiqat dövründə Qərbi Azərbaycanda baş verən demoqrafik dəyişikliklərin tarixi köklərini açıqlamışlar. Bu tədqiqatçılardan A.Lalayan və A.Badalyanın tədqiqatları nəzər-diqqəti cəlb edir. Onlar sovet tarixşünaslığının ənənəvi konsepsiyasına xidmət etməyərək, XX əsrin əvvəllərində Cənubi Qafqazda milli münasibətlərin kəskinləşib, qarşıdurmaya çevrilməsində səbəbkar kimi çar mütləqiyyətini, daha doğrusu Rusiyanı deyil, «Daşnaksütun» partiyasının millətçi separatçı fəaliyyətini görürdülər. Belə ki, A. Lalayan[2] Azərbaycan torpaqlarına qərəzli və iddialı münasibət göstərilməsində, azərbaycanlılara qarşı aparılan soyqırımda «Daşnaksütun» partiyasının xüsusi yeri olduğunu göstərir. Müəllif qeyd edir ki, «Daşnaksütun» partiyası öz qəddarlığı ilə başqa partiyalardan fərqlənir. Bu partiyanın üzvləri Azərbaycanın Qarabağ və Naxçıvan əraziləri, Gürcüstanın Borçalı, Axalsıx, Axalkələki əraziləri və Şərqi Anadoludan ta Aralıq dənizinə qədər olan hissəsini Türkiyədən qoparıb almaq hesabına «böyük müstəqil Ermənistan yaratmaq» ideyalarını açıq surətdə göstərirlər.

Digər erməni tarixçisi A.Badalyanın daşnak hakimiyyəti zamanı ölkədəki vəziyyətə verdiyi qiymət təqdirəlayiqdir. O, yazırdı ki, «daşnakların hökmranlığı zamanı ölkədə aclıq, ölüm hökm sürürdü».[3]

Azərbaycan tarixşünaslığının postsovet dövrü mərhələsində ayrı-ayrı tədqiqatçıların apardıqları araşdırmalar tədqiqat obyektinin tarixi köklərinin öyrənilməsinə aydınlıq gətirmiş və problemə tarixi reallıq mövqeyindən

---

[1] Аристова Т. Материальная культура курдов XIX – первой половины XX веков. Москва, 1990.

[2] Лалаян А. Контрреволюционный «Дашнакцутюн» и империалистическая война 1914-1918 гг. – «Революционный Восток», 1936, №2-3.

[3] Бадалян А. Население Армении со времен присоединения ее к России до наших дней. Изв. А/1. Арм. ССР. Серия общей науки, 1953, №5.

yanaşılmasına kömək etmişlər. Belə ki, B.Nəcəfov öz əsərində[1] göstərir ki, XIX əsrin birinci otuzilliyində ölkədə ciddi demoqrafik dəyişikliklər baş versə də Azərbaycan torpaqlarını əhatə edən Bakı, Yelizavetpol, İrəvan quberniyalarının əhalisinin etnik tərkibində dominantlıq azərbaycanlılara məxsus idi.

H.Verdiyeva öz tədqiqatında[2] problemin ayrı-ayrı aspektlərinə toxunmuş, ermənilərin Azərbaycan torpaqlarında aftoxton əhali olduğunu göstərmiş və belə bir gerçəkliyi vurğulamışdır ki, Rusiya imperiyası özünə sosial baza yaratmaq məqsədilə ölkəyə xristian xalqlarını köçürərkən, ermənilrə xüsusi diqqət yetirmiş, onlar isə öz növbəsində bölgədə yaranmış ictimai-siyasi durumdan sui istifadə etmişlər.

Tədqiqat dövründə Qərbi Azərbaycanda baş verən demoqrafik dəyişikliklərin əsas səbəbini – 1918-1920-ci illərdə Azərbaycanın ayrı-ayrı bölgələrində Azərbaycan xalqına qarşı erməni separatçıları tərəfindən törədilmiş soyqırım aktlarını bir qrup tədqiqatçılar öz araşdırmalarında göstərmişlər. Belə ki, A.Xəlilov[3] Cənubi Qafqazda göstərilən xronoloji çərçivə dövründə azərbaycanlılara qarşı törədilmiş soyqırımı tarixi sənədlər, ilk növbədə Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) mərkəzi və yerli orqanlarının kargüzarlıq sənədləri, habelə 1918-ci ilin avqustunda yaradılmış Fövqəladə İstintaq Komissiyasının materialları əsasında tədqiq etmişdir.

İ.Musayev[4] apardığı tədqiqatlar nəticəsində Azərbaycan torpaqlarında erməni millətçilərinin törətdikləri vəhşilikləri zəngin faktoloji baza əsasında göstərmiş, Zəngəzur faciəsinin acı nəticələrini açıqlamışdır.

Azərbaycan xalqına qarşı birtərəfli və qərəzli mövgedən çıxış edən sovet rejimi daşnaklarla mənəvi birliyini nümayiş etdirərək, XX əsrin ortalarında Qərbi Azərbaycan torpaqlarını onun həqiqi əhalisindən təmizləməyə təşəbbüs göstərmiş və II Dünya müharibəsi sona yetdikdən sonra dövlət səviyyəsində qərarlar qəbul edərək on minlərlə azərbaycanlını tarixi torpaqlarından çıxarmışdı. Bələliklə, Azərbaycan xalqının tarixinə 1948-1953-cü illər deportasiyası daxil olmuş, lakin bu problem SSRİ-nin mövcud

---

[1] Наджафов Б. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX – начале XX веков. Баку, 1993.

[2] Вердиева Х. Переселенческая политика Российской империи в Северном Азербайджане. Баку. 1999.

[3] Халилов А.Х. «Геноцид против мусульманского населения» Закавказья в 1917-1920 годах в исторических источниках Баку, 1996.

[4] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1923-cü illər). Bakı, 1996.

olduğu zamanda qapalı səhifələr sırasına aid edildiyi üçün uzun illər tarixi tədqiqatlardan kənarda qalmışdır. Yalnız sovet rejimi dağıldıqdan sonra Vətən tarixşünaslığı Azərbaycan tarixinin bu öyrənilməmiş səhifələrini tədqiqat obyekti kimi götürmüş və ayrı-ayrı tədqiqatçılar bu məsələni araşdırmış və dövrləşdirmişlər. Müstəqilliyimizin ilk illərində Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların taleyi haqda ilk tədqiqat əsərini görkəmli tarixçilər İsrafil Məmmədov və S. Əsədov yazmışlar. H. Rəhimoğlunun, Arzumanlı V. və N. Mustafanın birgə yazdığı tarixi əsərlər milli tarixşünaslıqda mühüm yer tutur. Onların araşdırmaları təqdirəlayiqdir.[1] Problemi tarixi sənədlər və faktiki materiallar əsasında öyrənən A.Paşayevin araşdırmaları xüsusi diqqətə layiqdir. «Köçürülmə» əsərində müəllif çox dəyərli arxiv materiallarına istinad edərək, 1948-1953-cü illər deportasiyasının mahiyyətini açıqlamağa çalışmışdır.[2]

Azərbaycan əhali tarixini son illər bir-sıra tədqiqatçılar ciddi şəkildə araşdırırlar. Bu baxımdan L.L.Həsənovanın tədqiqatları diqqətəlayiqdir. Müəllif Azərbaycanın əhali tarixi ilə bağlı araşdırmalar apararkən, Qərbi Azərbaycanda tədqiqat dövründə baş verən demoqrafik dəyişiklikləri statistik göstəricilər və əhali siyahıya almaları əsasında öyrənmişdir. Tədqiqatının mənbə bazasını göstərərkən L.Həsənova qeyd etmişdir ki, «bütövlükdə əhalinin, o cümlədən əhali tarixinin öyrənilməsində əhali siyahıya almaları əvəzsiz rola malikdir».[3] Bu mövqedən çıxış edən tədqiqatçı 1959-cu ildə SSRİ-də keçirilən əhali siyahıyaalmasını ciddi şəkildə öyrənmiş və 1948-1953-cü illərdə Ermənistan SSR-dən azərbaycanlıların deportasiyasının nəticələrini göstərə bilmişdir.

Beləliklə, tədqiqatın öyrənilmə səviyyəsi göstərir ki, qarşıya qoyulan məqsəd Azərbaycan tarixşünaslığında az toxunulmuş problemin tədqiqinə yönəlmişdir.

**Tədqiqatın mənbə bazası.** Bu sahə 1920-1980-ci illərdə Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların demoqrafik vəziyyəti işin mövzusuna dair kiçik faktların əks olunduğu sənəd və materialların toplanmasını, sistemləşdirilməsini və bunun əsasında problemin

---

[1] Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı: 1992. Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997. Arzumanlı V. Mustafa N. Tarixin qara səhifələri. Deportasiya, soyqırım, qaçqınlıq. Bakı, 1998.

[2] Paşayev A. Köçürülmə. 1948-1953. Bakı. 1995.

[3] Həsənova L.L. Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında (sovet siyahıyaalınmaları əsasında) – Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2005, s.5.

öyrənilməsini tələb edir. Tədqiq olunan işin xronoloji çərçivəsi 1920-1980-ci illərin sonuna kimi dövrü əhatə etdiyindən istinad etdiyimiz qaynaqları aşağıdakı kimi qruplaşdırmaq olar: 1) tarixi qeyd və əsərlər; 2) Qərbi Azərbaycan ərazisində yaşayan əhali tarixinə dair sənədlər; 3) inzibati əraziyə dair sənədlər; 4) statistik məlumatlar; 5) çar Rusiyası və SSRİ dövründə aparılan siyahıyaalmalar.

Mövzunun tədqiqi zamanı Azərbaycan Respublikası Milli Dövlət Tarix arxivinin (ARMDTA) 24-cü fondunda saxlanılan sənəd və materiallardan geniş istifadə olunmuşdur.

İrəvan bölgəsinin tarixi-demoqrafiyasının öyrənilməsində XIX-XX əsrin əvvəlləri rus qafqazşünaslığı müəyyən işlər görmüşdür.

Rus qafqazşünaslarından İ.Şopen öz əsərində İrəvan bölgəsində yerləşdirilən ermənilərin sayını göstərməklə yanaşı, bunların yerli əhalinin məişətinə, demoqrafik vəziyyətinə, mədəniyyətinə, sosial-iqtisadi vəziyyətinə, dini dəyərlərinə və digər məsələlərə mənfi təsirindən bəhs edir.[1] Görkəmli rus diplomatı, məhşur yazıçı, Rus imperiyasının İrandakı səfiri, ermənilərin İrandan köçürülməsinin təşkilatçılarından biri olan A.S.Qriboyedovun əsərləri və qeydləri də problemin öyrənilməsində mühüm yer tutur.[2] Digər bir rus şərqşünası S.P.Zelinski quberniyanın və İrəvan şəhərinin vəziyyəti, o cümlədən də əhali barəsində geniş məlumatlar vermişdir.[3] Problemə dair müəyyən məsələlər V.İ.Veliçkonun, N.N.Şavrovun, S.N.Qlinkanın, K.N.Smirnovun və digər tarixçilərin əsərlərində də geniş qeyd olunmuşdur.

Dissertasiya mövzusunun tədqiqatında işin mənbə bazasını faktiki materiallar, statistik göstəriciləri, özündə cəmləşdirən siyahıya almalar, dövri mətbuat və tarixi sənədlər təşkil edir.

Azərbaycan torpaqlarını işğal edən Rusiya imperiyası və onun məmurları mənəvi olaraq birtərəfli mövqedən çıxış etsələr də, dərc olunan dövrün hesabatları reallığı ortaya qoymuş və aydın görünür ki, Qərbi Azərbaycan əhalisinin əksəriyyəti azərbaycanlılardır.[4] XIX əsrin ikinci

---

[1] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху присоединения к Российской империи. СПб., Типография Императорской Академии наук, 1852. IX, 1231,VIc.

[2] Грибоедов А.С. Записка о переселении армян из Персии в наши области. Соч., т.II,М.: Изд-во «Правда», 1971,339-345.

[3] Зелинский С.П. Три магала: Нахичеванский, Ордубадский и Даралагезский. Географически-статистическое и сельскохозяйственное описание. Сборник сведений о Кавказе. т. VII, Тифлис, 1880,с 209-248.

[4] Всеподданейший отчет наместника Кавказского к Гражданскому управлению Кавказским и Закавказским краем. 1863-1871 гг.

yarısında hazırlanan bu hesabat Azərbaycan ərazisində mövcud vəziyyətin reallığını göstərib.

Problem öyrənilərkən Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin (ARDTA) ayrı-ayrı fondlarında saxlanılan tarixi sənəd və faktiki materiallar tədqiqatın faktoloji bazasını təşkil etmiş və xüsusən 411, 897, 894, 970, 1061-cü fondlarda saxlanılan faktiki materiallardan geniş istifadə edilmişdir.[1]

Əhali problemlərinin araşdırılmasında əsas mənbələrdən biri siyahıya almalardır. Əhali siyahıya almalarında aparılan ərazilərdə yaşayan əhalinin bütövlükdə əhatə olunması, əhali siyahıya alınmalarının dövriliyi, bütün ərazilərdə vahid proqram və vahid qayda üzrə keçirilməsi əsas prinsip kimi götürülür. Əhalinin siyahıya alınmaları iki metodla reallaşdırılır. Bunlar sorğu və özünüsayma metodlarıdır. Azərbaycanda olduğu kimi Rusiya imperiyası tərkibində olan İrəvan quberniyasının əhalisinin ilk müasir əhali siyahıya alması anlayışına uyğun əhali siyahıya alması 1897-ci ildə olmuşdur. Baxmayaraq ki, bu siyahıya almada müəyyən dərəcədə təhriflər müşahidə olunur, amma o bu günə qədər mühüm əhəmiyyətə malikdir. Ermənistan SSR-in yaranmasından sonra Sovetlər İttifaqının digər müttəfiq respublikalarının əhalisi kimi Ermənistan SSR azərbaycanlıları arasında siyahıya almalar keçirildi. 1926, 1937, 1939, 1959, 1970, 1979 və 1989-cu illərdə Sovet İttifaqında, o cümlədən Ermənistan SSR-də siyahıya almalar keçirilmişdir. 1989-cu ildə keçirilən siyahıya alma Sovet əhali siyahıya alması tarixində sonuncu siyahıya alma olmuşdur. Onu da qeyd etmək lazımdır ki, bu siyahıya alma bütün ərazidə vahid proqram və vahid qayda prinsipinə əməl etmədi. Belə ki, 1988-ci ildən başlamış və azərbaycanlılara qarşı yönəlmiş «genosid» siyasəti siyahıya almanın düzgün aparılmasına imkan vermədi. Əhali haqda verilən məlumatların çoxu saxtalaşdırıldı.

Daha doğrusu 1988-1989-cu illərdə Ermənistan SSR-də yaşayan azərbaycanlıların əksəriyyəti öz yurd-yuvalarından qovulduqları üçün aparılan siyahıya alma materiallar əsasən əvvəlki faktlara əsaslanaraq nisbi götürülmüşdür.

Bütün dövrlərdə əhali ilə bağlı olan problemlər ölkənin sosial-iqtisadi və siyasi inkişafına təsir göstərir. Bu baxımdan hər bir ölkənin ərazisində

---

[1] Azərbaycan Respublikası Milli Dövlət Tarix Arxivi (ARMDTA), f411. s.9. iş.580; f.411. s.9. iş.657; f.411.s.26.iş.34; f.411.s.26.iş.296; f.411. s.26. iş.330; f.411. s.28.iş.101; f.411.s.28.iş.125; f.411. s.36. iş.21; f.411.s.38. iş.13;f.894.s.1. iş.43; f.894, s.10.iş.80; f.894.s.10.iş.80 ;f.894.s.10.iş81; f.897.s.1.iş.1; f.970.s.1.iş.42; f.970.s.1.iş.83;f.970.s.1.iş.85; f.970.s.1.iş.152; f.1061.s.1.iş.95;

keçirilən siyahıya alma müvafiq dövrdə sosial-iqtisadi, siyasi və mədəni dəyişiklikləri özündə əks etdirir.

1941-1945-ci illər müharibəsində Ermənistan SSR ərazisində yaşayan azərbaycanlılar da SSRİ- nin tərkibində olan millətlər kimi fəal iştirak etmişlər. Cəbhəyə gedənlərin əksər hissəsi geri qayıtmamış, itkin düşmüş və ya şikəst halda geri qayıtmışdılar. Əlbəttə ki, bu hallar Ermənistan SSR-də yaşayan azərbaycanlıların demoqrafik vəziyyətinə ciddi təsir göstərmişdir. Represiya dövründə də soydaşlarımızın demoqrafik vəziyyətində dəyişikliklər müşahidə olunurdu.

1941-1945-ci illər müharibəsi SSRİ-nin qələbəsi ilə başa çatdı. SSRİ-nin qalib gəlmsinə baxmayaraq siyasi sistemdə yenilik baş vermədi.

Dünyanın əksər dövlətlərində siyahıya alma keçirilsə də SSRİ-də siyahıya almalar aparılmadı, halbuki, belə bir siyahıya almanın keçirilməsi II Dünya müharibəsinin nəticələrinin müəyyənləşdirilməsinə böyük təsiri ola bilərdi.

Əhaliyə aid məlumatlar içərisində əhalinin say dinamikasının müəyyənləşdirilməsi əsas yer tutur. 1941-1945-ci illər müharibəsi, müharibədən az sonra 1948-1953-cü illər deportasiyası Ermənistan azərbaycanlılarının say dinamikasında əsaslı dəyişikliklərə səbəb oldu. Bu dövrdə Qərbi Azərbaycan əhalisinin sayı kəskin şəkildə azalmışdı.

Əhalinin siyahıya almalarının ən müsbət cəhətlərindən biri də odur ki, burada əhalinin statistik göstəriciləri rəsmi məlumatlardır. Burada əhalinin cins və yaş-cins tərkibi digər demoqrafik proseslərə də təsir göstərməsi etibarilə əhəmiyyətlidir. Ümumiyyətlə müharibələr əhalinin yaş-cins tərkibinin dəyişməsinə böyük təsir göstərir.

Bu baxımdan 1941-1945-ci illər müharibəsi SSRİ-nin digər respublikaları kimi Ermənistan SSRİ ərazisində yaşayan azərbaycanlıların da cinsi tərkibinə təsir göstərmişdir. 1939-cu il siyahıya almanın nəticələrinə görə qərbi azərbaycanlıların cinsi tərkibində kişilər 52,30%, qadınlar 47,70% təşkil edirdi. 1959-cu il əhali siyahıya alması zamanı bu rəqəmlər müvafiq olaraq 48% və 52% təşkil etmişdi. Müharibə dövründə kişilərin sayı 3,7% azalmışdırsa, qadınların sayı 4,3% çoxalmışdı. 1970, 1979 və 1989-cu illər siyahıya almalar zamanı kişilərin sayı cüzi artsa da, yenə də qadınlara nisbətən azlıq təşkil edirdilər.

1959, 1970, 1979 və 1989-cu illərin əhali siyahıya almalarına əsasən Ermənistan SSR-də yaşayan azərbaycanlı ailələrinin sayında artım müşahidə olunur. Bununla bərabər ailənin həcmində də artım müşahidə olurdu. Şəhər yerində 3-4 uşaqlı ailələr üstünlük təşkil edirdi.

Tənha ailələrin sayı az miqdarda idi. Onlar şəhərə nisbətən kənd yerlərində üstünlük təşkil edirdilər.

Siyahıya almalar zamanı həmçinin əhalinin etnik tərkibi müəyyən olunur. Sovet hakimiyyətinin 1920-1950-ci illərdə apardığı siyasət nəticəsində Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların sayı kəskin şəkildə azalmışdı. 1948-1953-cü illərdə isə azərbaycanlılara qarşı soyqırımı siyasəti həyata keçirilmişdir. Sovet dövlətinin qərbi azərbaycanlılara qarşı apardığı siyasətin nəticəsini rəqəmlərlə ifadə edək:

1919-cu ilin 16-19 avqust ayında Dünya Sülh konfransına göndərilən ərizənin bir hissəsində belə deyilirdi: Göstərilən rayonların əhalisi müsəlman – azərbaycanlılardır, bir xalqdan ibarətdirlər, Azərbaycanın yerli əhalisi eyni millət eyni dinə, malikdirlər. Etnik tərkibi, dili, mənəviyyəti və məişəti Azərbaycan SSR əhalisi ilə tam eynidir. Sülh konfransına təqdim edilən ərizədə Qərbi Azərbaycanın milli tərkibi belə idi: Naxçıvanda-azərbaycanlılar 62,5%, ermənilər 36,7%, digərləri 0,8%; Şərurda-azərbaycanlılar 72,3%, ermənilər 27,1%, digərləri 0,4%; Sürmælidə-azərbaycanlılar 68,0%, ermənilər 30,4%, digərləri 1,6%; İrəvanda-azərbaycanlılar 60,2%, ermənilər 37,4%, digərləri 2,4% .

Yuxarıda göstərilən rayonların əhalisinin etnik tərkibindəki 1919-1990-cı illər ərzindəki fərqlər nəzərdən keçirildikdə aydın olur ki, əvvəllər əhalinin tam əksəriyyət təşkil etdiyi tarixi Azərbaycan torpaqlarında Sürməli və İrəvan ərazisində indi bir nəfər olsun belə azərbaycanlı qalmamışdır.

Müharibədən sonrakı illərdə, daha doğrusu 1959-cu il siyahıya almanın nəticələrini araşdırarkən Qərbi Azərbaycan azərbaycanlılarının demoqrafik vəziyyətində artım müşahidə olunur. Azərbaycan əhalisinin say artımı əsasən azərbaycanlı ailələrindəki təbii artımın hesabına olmuşdur. Bu dövrlər ərzində, yəni 1920-1990-cı illərdə Ermənistan SSR ərazisində yaşayan ermənilərin sayı kəskin surətdə artmışdır. Onu da qeyd etmək lazımdır ki, Qərbi Azərbaycanda əhalinin ruslaşdırılması və ermənilşdirilməsi prosesi iflasa uğradı. Əhali siyahıya almaların hamısında Qərbi Azərbaycanın azərbaycanlı əhalisi öz doğma dilini Azərbaycan dili hesab etdiklərini bildirirdilər. Ermənistan SSR-də savadsızlığın aradan qaldırılması problemi bütün siyahıya almalarda daha aydın əks olunmuşdur. Bu 1959, 1970, 1979-cu və 1989-cu il siyahıya almalarıdı. Ermənistan SSR əhalisinin təhsil sahəsindəki göstəricilərinin ildən-ilə artması daha obyektiv əks olunmuşdu. Digər millətlərlə yanaşı azərbaycanlı əhalisinin də savadlılıq dərəcəsində böyük artım müşahidə olunur. Kişilərlə bərabər qadınlar arasında da savadlılığın artması qeydə alınır.

1979-cu il siyahıya alınmasında və növbəti əhali siyahıya alınmalarında təhsil səviyyəsinin müəyyənləşdirilməsi ön plana çəkilmişdir. Təhsilin bütün pillələri (ali, orta, tam, natamam və ibtidai) üzrə Ermənistan SSR-də irəliləmə olmuşdur. O, cümlədən azərbaycanlılar arasında bu artım müşahidə olunurdu.

Əhalinin sosial-iqtisadi xarakteristikasına sovet əhali siyahya alınmalarında, o cümlədən 1959, 1970, 1979 və 1989-cu il əhali siyahıya alınmalarda geniş yer verilmişdir. Adətən belə siyahıya almalarda sosial-iqtisadi məsələlərə aid 5 sual həsr edilir. Qərbi Azərbaycan əhalisinin tərkibində və kənd təsərrüfatı ilə məşğul olan kəndçilərin mövqeyi durmadan möhkəmlənirdi. Bunun əksinə olaraq Ermənistan SSR-də yaşayan qulluqçuların mövqeyi azalırdı. Bu onunla izah olunur ki, orta məktəbi bitirənlərin əksəriyyəti Azrbaycan SSR ərazisində fəaliyyət göstərən ali və orta ixtisas məktəblrinə daxil olurdular. Ermənistan SSR-də olan ali və orta ixtisas məktəblərinə azərbaycanlıları çox az sayda qəbul edirdilər. Ziyalıların əksəriyyəti Azərbaycanda oxuyub, orada qalaraq işləyirdilər. Ermənistan SSR-də yaşayan azərbaycanlıların sayının azalmasnın əsas səbəblərindən biri də bu idi. Belə bir mürəkkəb proses obyektiv qanunauyğunluqdan daha çox dövlətin subyektiv siyasəti ilə bağlı idi. Dövlət süni şəkildə azərbaycanlı gənclərin Ermənistan SSR ərazisində oxuyub, işləmələrinə əngəl törədirdi.

Bu əngəlləmə siyasəti 1980-cı illərin ortalarında daha da aşkar forma aldı və nəticədə Ermənistan SSR ərazisində fəaliyyət göstərən ali və orta ixtisas məktəblərində çalışan azərbaycanlı ziyalıların işdən qovulma prosesi gücləndi.[1]

Əhalinin yaşayış vasitələri üzrə bölgüsü əhali sosial-iqtisadi inkişafının əsas göstəricilərindən biri hesab olunur. 1979-cu il siyahıya almasına görə məşğul əhalinin sayı artmışdır. 1989-cu il siyahıya almasında isə onların sayı 1979-cu il siyahıya alması ilə müqayisədə xeyli azalmışdır. Demək olar ki, 30% aşağı düşmüşdür. 1980-ci illərin II yarısında maddi istehsal sahəsində çalışan əhalinin sayı iki dəfə azalmışdır. İşsizlərin say dinamikasında çoxalma tendensiyası müşaiət olunurdu.

Məşğul əhali arasında zehni əməklə məşğul olanların say dinamikasında da kəskin azalmalar hiss olunurdu.

Miqrasiyaya dair ümumi məlumat əhali siyahıyaalmaların mühüm cəhətlərindən sayılır. Rusiya imperiyası dövründən fərqli olaraq sovet dövründə miqrasiyalar azalmışdı.

---

[1] İQAOP Az. SSR, f.On, 10, d.104,1. 1-3.

Bu dövrdə ölkənin qapalılığı, güclü pasport sistemi və s. miqrasiyanın qarşısını tam almışdır. Bütün siyahıya almalardan aydın olur ki, Ermənistan SSR-də yaşayan azərbaycanlılar yer dəyişməyə o qədər də güclü meyl göstərməmişlər. Yalnız 1980-cı illərin sonlarında erməni millətçilərinin azrbaycanlılara qarşı apardığı soyqırım siyasəti nəticəsində, əhalinin məcburi yerdəyişməsi baş verdi.

Əhali tarixinə aid mənbələrin araşdırılması Qərbi Azərbaycan azərbaycanlılarının demoqrafik vəziyyətinin müəyyənləşdirilməsi üçün böyük rol oynamışdır.

Yuxarıda göstərilənləri yekunlaşdıraraq belə nəticəyə gəlirik ki, 1959, 1970, 1979 və 1989-cu illər əhalinin siyahıya almaları və əhalinin demoqrafik vəziyyətinə dair digər qaynaqlar Ermənistan SSR ərazisində yaşayan azərbacanlıların tarixinin bütöv bir dövrünü hərtərəfli şəkildə aydınlaşdırır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi keçmiş sovetlər birliyində bolşeviklər tərəfindən yaradılan «Ermənistan» deyilən bir qurumda azərbaycanlıların 1920-1980-ci illərdə olan demoqrafik durumunu öyrənməkdir.

Bu məqsədi əsas gətirərək aşağıdakı vəzifələr qarşıya qoyulmuş və əhali problemlərinin sabit dairəsinə daxil olan məsələlər tədqiq edilmişdir:

– tədqiqat dövründə Ermənistan SSR-də yaşayan azərbaycanlıların say dinamikasının mərhələlərini müəyyənləşdirmək və bu mərhələlərə uyğun olaraq say dinamikasını izləmək, əhalinin yerdəyişməsini göstərmək;

– göstərilən qurumda yaşayan azərbaycanlıların təkrar istehsalı və bu prosesdə yeri olan sosial-iqtisadi amillərin təsirini öyrənmək;

- tədqiqat dövründə azrbaycanlıların ailə-nigah, yaş-cins, savadlılıq problemlərini araşdırmaq;

- əhalinin inkişaf dinamikasının mərhələlərini müəyyən etmək və bu mərhələlərə uyğun olaraq sayını dəqiqləşdirmək.

– II Dünya müharibəsi başa çatdıqdan sonra, sovet avtoritar-totalitar rejimin antiazərbaycan mövqeyinin tarixi nəticəsi olan 1948-1953-cü illər deportasiyasının Ermənistan SSR-də yaşayan azərbaycanlıların demoqrafik vəziyyətinə təsirini statistik və faktoloji materiallara istinadən göstərmək.

**Dissertasiyanın metadoloji əsası** obyektiv tarixilik mövgeyindən yanaşma təşkil edir. Ən mürəkkəb bir problem kimi qarşıya çıxmış, sovet tarixşünaslığında hakim ideologiya olan marksizm-leninizm nəzəriyyəsi Vətən tarixşünaslığının postsovet konsepsiyasının tələblərinə cavab vermədiyi üçün əhali problemləri ilə bağlı olan nəzəriyyə və konsepsiyalar

diqqətlə nəzərdən keçirilmiş[1] və belə bir nəticə əldə edilmişdir ki, əhali sosial kateqoriya olduğu üçün cəmiyyətdə baş verən bütün sosial proseslərlə bağlıdır. Bu əsasdan çıxış edərək, problemi öyrənərkən tarix və demoqrafiya elmlərinin müasir metodlarına istinad edilmiş və araşdırma tarixi müqayisə, sintez, analiz kimi ümumi, tarixi müqayisə, xronoloji dövrləşdirmə kimi konkret və statistik cədvəllər və s. üsulları özündə əks etdirən elmlərarası metodlar, qrafoanalitik metodlar əsasında aparılmışdır.

**Dissertasiyanın elmi yeniliyi.** Öyrənilən mövzu Vətən tarixşünaslığına tədqiqat obyekti kimi daxil edilmiş və aşağıdakı elmi yeniliklər müəyyən edilmişdir:

- Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq XX əsrdə Qərbi Azərbaycan əhalisi məsələsi kompleks şəkildə tarixi-demoqrafik tədqiqat obyektinə çevrilmişdir;

– ilk dəfə olaraq tədqiq olunan dövrdə bolşeviklərin yaratdığı «Ermənistan» deyilən qurumun ərazi-coğrafi çərçivəsini təşkil edən Qərbi Azərbaycan əhalisinin etnik tərkibi tarixi müqayisə, qrafoanalitik metodlar əsasında öyrənilmiş və bu qurumda yaşayan azərbaycanlıların demoqrafik vəziyyəti kompleks şəkildə tədqiq edilmişdir;

– keçmiş sovetlər birliyində hakim avtoritar-totalitar rejimin apardığı qərəzli, birtərəfli antiazərbaycan siyasətinin Ermənistan SSR azərbaycanlılarının demoqrafik vəziyyətinə təsiri göstərilmişdir;

– SSRİ-nin iflası dövründə «erməni məsələsinin növbəti dəfə içtimai-siyasi səhnəyə gətirilməsi və Qərbi Azərbaycan torpaqlarının azərbaycanlılardan «təmizlənmə»si siyasətinin əhali sayında baş verən demoqrafik dəyişikliklərə təsiri göstərilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti** aşağıdakılardan ibarətdir:

1) dissertasiyanın yekunlarından regional demoqrafik siyasətin hazırlanması və həyata keçirilməsində istifadə oluna bilər;

2) işğal olunmuş torpaqlarımızın geri alınması üçün tarixi torpaqlarımızın gercəkliyini tarixi faktlarla sübuta yetirilməsində;

3) son dövrlərdə Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü ərazi iddialarının rədd edilməsində, o cümlədən İrəvan quberniyası ərazilərinin tarixi Azərbaycan əraziləri olmasını təsdiq etmək ücün;

4) Azərbaycanın bu bölgəsinin və onun əhalisinin tarixini saxtalaşdırılması cəhdlərinin qarşısının alınmasında istifadə oluna bilər;

---

[1] Судоплатов А.П. Современная буржуазная демография. М., 1988; Система знаний о народонаселении. Под. ред. Д.И.Валентся. М., 1990.

5) yerli əhalinin öz tarixi ilə bağlı məsələlərdə maarifləndirilməsində istifadə edilə bilər;
6) Azərbaycanın tarixi demoqrafiyası dərsliklərin hazırlanmasında istifadə oluna bilər;
7) universitetlərin Tarix fakültəsində xüsusi kurs kimi tədris oluna bilər;
8) Xarici İşlər Nazirliyində istifadə oluna bilər.
9) qarşıdan gələn uydurma erməni soyqrımının 100 illiyinin saxta olmasını sübut etmək üçün istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya Bakı Dövlət Universiteti Tarix fakültəsinin «Azərbaycan tarixi (təbiət fakültələri üzrə)» kafedrası nəzdində «Dünya azərbaycanlıları: tarixi-demoqrafiya» Elmi- Tədqiqat Laboratoriyasında yerinə yetirilmişdir.

Tədqiqatın əsas elmi nəticələri və məzmunu Azərbaycanın müxtəlif elmi dərgilərində çap olunmuş məqalələrdə, həmçinin müxtəlif elmi konfrans materiallarında öz əksini tapmışdır. Dissertasiya işi mütəxəssislər və fərdi qaydada dəfələrlə müzakirə olunmuş dəyərli məsləhətlər alınmış, sonda isə Bakı Dövlət Universiteti Tarix fakültəsinin "Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası"nın nəzdində «Dünya azərbaycanlıları: tarixi-demoqrafiya» Elmi Tədqiqat Laboratoriyasında iki dəfə müzakirə edilmiş və müdafiəyə təqdim olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, 10 paraqrafı özündə birləşdirən dörd fəsil, nəticə, istifadə edilmiş mənbə və ədəbiyyat siyahısı, həmçinin əlavələrdən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, xronoloji çərçivəsi əsaslandırılmış, öyrənilmə səviyyəsi araşdırılmış, mənbə bazası təhlil olunmuş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, həmçinin metodoloji əsası, elmi yenilikləri və əməli əhəmiyyəti göstərilmişdir.

**«Oktyabr çevrilişindən sonra bölgədə sosial-siyasi vəziyyət»** adlı birinci fəsil iki paraqrafdan ibarətdir. **«Bolşeviklərin azərbaycanlılara qarşı ermənipərəst siyasəti»** adlı birinci paraqrafda XX əsrin ilk onilliklərinə ekskurs edilmiş, o dövrün müəlliflərinin əsərlərinə, XX əsrin I yarısının Qərbi Azərbaycan tarixinə aid mənbələrinə, həmçinin bu dövrün tədqiqatçılarının araşdırmalarının nəticələrinə əsaslanaraq bolşeviklərin yürütdüyü ermənipərəst siyasətin çar Rusiyasının yürütdüyü ermənipərəst siyasətlə heç bir fərqi olmadığı, əslində həmin siyasətin davamı olduğu təsdiq edilmişdir. Buna sübut 1917-ci ilin 29 dekabr tarixli Xalq Komissarları Sovetinin (XKS) dekretini göstərmək olar. Dekretdə deyilir ki, XKS rus ordusu tərəfindən işğal edilmiş «Türkiyə Ermənistanı»nda erməni xalqının tam istiqlaliyyətini elan etməklə təyini müqəddəratı haqqını müdafiə etdiyini bütün erməni xalqına bildirir[1].

Onu da qeyd etmək lazımdır ki, hakimiyyətə gələn bolşeviklər ilk günlərdən "erməni kartı"ndan məharətlə istifadə etməyə başladılar. Sovet Rusiyasının rəhbəri V.İ.Lenin S.Şaumyanı 16 dekabr 1917-ci ildə Bakı sovetinin sədri vəzifəsinə irəli çəkir. Rusiya Xalq Komissarları Soveti tərəfindən S.Şaumyan Qafqaza fövqəladə komissar təyin edilir və yuxarıda göstərilən XKS-nın 29 dekabr 1917-ci il tarixli dekretin icrası ona tapşırılır.

**«Azərbaycan xalqının ərazi bütövlüyü uğrunda mübarizəsi və erməni məkri»** adlı ikinci paraqrafda Azərbaycan Müvəqqəti hökumətinin Gəncədə fəaliyyətə başladığı vaxtda ilk tədbiri 1918-ci il iyunun 19-da bütün Azərbaycan Xalq Cumhuriyyəti ərazisində hərbi vəziyyət elan etməsi, 1919-cu ilin axırlarına artıq 25 minlik ordu yarada bilməsi barədə, İrəvan quberniyası və Zəngəzur qəzasında baş verən azərbaycanlıların soyqrımı mənbələr əsasında öyrənilmişdir.

Dissertasiya işinin ikinci fəsli **«Ermənistan SSR azərbaycanlılarının say dinamikası və təkrar istehsalı»** adlanır. Dörd paraqrafdan ibarət olan bu fəsilin **«Azərbaycanlıların say dinamikası və Ermənistan SSR üzrə yerləşməsi»** adlı birinci paraqrafda 1920-ci ildə Ermənistanda daşnak hakimiyyəti devriləndən sonra sovet hakimiyyətinin qurulması, daşnakların

---

[1] Известия рабочих и солдатских советов 3 янв.1918

hakimiyyəti zamanı bölgədə yaşayan azərbaycanlılara qarşı törədilən cinayətlər elmi cəhətdən təhlil edilmişdir. İrəvan quberniyasına daxil olan qəzaların və İrəvan şəhərinin əhalisinin demoqrafik vəziyyətini 1853-cü ildə Sankt Peterburq şəhərində çapdan çıxan «Военно-Статистическое обозрение Эриванской губернии» kitabı əsasında təhlili bu paraqrafda aparılmışdır[1]. Digər mənbələrə əsasən 1897-ci ildə İrəvan quberniyasının əhalisinin ümumi sayı 240.000 nəfər olmuşdur[2].

Ermənistan SSR əhalisinin say dinamikası, onun tərkibində azərbaycanlıların və ermənilərin xüsusi çəkisi araşdırılmış, konseptual əhəmiyyət daşıyan dövr bölgüsü aparılmış və əhalinin siyasi tarixi bu faktlara əsasən öyrənilmişdir.

1917-ci ildə Qərbi Azərbaycan ərazisində yaşayan əhalinin ümumi sayı 212458 nəfər olmuşdur. Onlardan 129586 (61%) azərbaycanlı, 80530 (38%) erməni idi;[3] 1922-ci ildə əhalinin ümumi sayı 781011 nəfərdir, onlardan 76539 (9,8%) nəfər azərbaycanlı, 671513 (86%) nəfər erməni;[4] 1926-cı ildə əhalinin ümumi sayı 804664 nəfərdir, onlardan 83181 (9,4%) nəfəri azərbaycanlı, 743571 (84,5%) nəfəri erməni;[5] 1937- ci ildə əhalinin ümumi sayı 1209456 nəfərdir, onlardan 124434 (10,2%) nəfəri azərbaycanlı, 1009004 (83,4%) nəfəri erməni;[6] 1939-cu ildə əhalinin ümumi sayı 1282338 nəfərdir, onlardan 130896 (10,2%) azərbaycanlı, 1061997 (82,8%) nəfəri erməni;[7] 1959-cu ildə əhalinin ümumi sayı 1763048 nəfərdir, onlardan 107748 (6,1%) azərbaycanlı, 1551610 (88%) nəfəri erməni;[8] 1970-ci ildə əhalinin ümumi sayı 2491873 nəfərdi, onlardan 148189 (5,9%) azərbaycanlı, 2208327 (88,6%) nəfəri erməni;[9] 1979-cu ildə əhalinin ümumi sayı 3037259 nəfərdi, onlardan 160841 (5,3%) nəfəri azərbaycanlı, 2724975 (89,7%) nəfəri erməni;[10] 1987-ci ildə əhalinin ümumi sayı 3280000 nəfər idi, onlardan 210000 (6,4%) nəfəri

---

[1] Усла Р. Военно-Статистическое обозрение Эриванской губернии.Спб: 1853.

[2] Коркодян З. Население Советской Армении(1831-1931). Иреван: Аястан, 1932.

[3] Народное хозяйство Армянской ССР. Ереван: Статистика, 1980.

[4] Население Закавказья. Всесоюзная перепись 1926 г. Тбилиси, 1928.

[5] Yenə orada.

[6] Всесоюзная перепись населения 1939г. Сб. материалов, М: Статистика, 1939.

[7] Yenə orada.

[8] Всесоюзная перепись населения СССР 1959 года. М: Статистика, 1959.

[9] Козлов В. И. Национальсти СССР. М:Финансы и статистика, 1982.

[10] Население СССР сегодня. М: Финансы и статистика,1882.

azərbaycanlı, 3070000 (93,6%) nəfəri erməni;[1] 1989-cu ildə əhalinin ümumi sayı 3283000 nəfər idi, onlardan 1500 (0,001%) nəfəri azərbaycanlı, 3281000 (99,9%) nəfəri erməni idi[2].

Yuxarıda verilən statistik məlumatlar XX əsrdə Qərbi Azərbaycanda azərbaycanlılara qarşı soyqrım baş verməsini bir daha sübut edir.

II fəslin ikinci paraqrafı «**XX əsrin 30-cu illərində Ermənistan SSR-də repressiya dalğası**» adlanır. Bu paraqrafda SSRİ məkanında baş verən repressiya dalğasının Qərbi Azərbaycan ərazisində yaşayan azərbaycanlılara necə təsir etdiyi elmi cəhətdən izah edilir. Qeyd edilir ki, ermənilər yaranmış vəziyyətdən məharətlə istifadə edərək sosial vəziyyətindən asılı olmayaraq azərbaycanlıları "siyasi mövqeyinə" görə məhv etmiş, ziyalılarımıza böhtanlar ataraq onları siyasi sürgünə göndərmiş, ailələrini həbs etmişlər. Hətta hakimiyyət əlehinə olan erməni daşnaklarının əvəzinə sadə azərbaycanlılar həbs edilərək məhv edilirdi.

II fəslin **«1948-1953-cü illər deportasiyası»** adlanan üçüncü paraqrafında qeyd olunur ki, bu dövrlərdə Qərbi Azərbaycan ərazisindən "ellər atası"nın 1947-ci il dekabrın 23-də imzaladığı SSRİ Nazirlər Sovetinin 4.083 nömrəli qərarına əsasən, yüz minlərlə azərbaycanlı Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülmüşdür. 1948-1953-cü illərdə Ermənistan SSR-dən köçürülən azərbaycanlıların sayı 100 min nəfərdən yuxarı olmuşdur.[3]

**«Təkrar istehsal»** adlı dördüncü paraqrafda əhalinin təkrar istehsalı anlayışının məzmunu araşdırılıb. Paraqrafda qeyd olunur ki, əhalinin təkrar istehsalına müxtəlif cür yanaşma var.

Təkrar istehsala "dar" yanaşmaya görə o, nəsillərin fasiləsiz yeniləşməsi prosesi, insanların çoxalması və ölümü kimi ikitərəfli prosesi şərh edir.[4]

Əhalinin təkrar istehsalının "geniş" anlayışına görə o, insanların hərəkətinin üç formasının cəmi kimi çıxış edir: təbii (doğum və ölüm), məkan (miqrasiya) və sosial (sosial strukturun dəyişməsi, sosial və professional mobillik və i.a.).[5]

---

[1] Население СССР 1988 г.Статистический ежегодник. М: Статистика,1989.

[2] Всесоюзная перепись населения. 1989г. М:Финансы и статистика,1989.

[3] Paşayev A.Ə. Köçürülmə. Bakı:Azərnəşr, 1995. s. 32.

[4] Воспроизводство населения и демографическая политика в СССР. Отв. Ред.Л.Л.Рываковский. М.Наука.1987.с.142.

[5] Система знаний о народо населении. Под. Ред. Д.И. Валентея. М: Высшая школа,1991,с.214.

V.M.Medkova görə əhalinin təkrar istehsalı doğum və ölüm vasitəsilə insan nəsillərinin dəyişməsi prosesində əhalinin sayı və strukturunun daimi yeniləşməsidir.[1]

Dissertasiya işinin «**Ermənistan SSR azərbaycanlılarının demoqrafik tərkibi»** adlı üçüncü fəsil iki paraqrafdan ibarətdir. Birinci paraqraf **«Savadlılıq»** adlanır. Bu paraqrafda Ermənistan SSR-də yaşayan azərbaycanlıların, o, cümlədən digər millətlərin savadlılıq dərəcələri təhlil olunmuş, əhalinin sayına görə orta savadlılıq göstəriciləri aydınlaşdırılmışdır. Ermənistan SSR-də yaşayan azərbaycanlıların savadlılıq dərəcəsini əsasən SSRİ miqyasında keçirilən siyahıyaalmalara görə təhlil edirik. Ona görə ki, əhalinin savadlılığı barədə başqa mənbələr demək olar ki, yox dərəcəsindədir.

**«Ailə və dil qrupları**» adlı ikinci paraqrafda qeyd edildiyi kimi Ermənistan SSR-də yaşayan azərbaycanlı ailələrin əksəriyyəti çoxuşaqlı ailələrdir. Belə ailələrin tərkibi əsasən valideyinlərlə birlikdə 9-11 nəfərdən və daha artıq sayda olurlar. Azərbaycanlılarla yanaşı yaşayan erməni və digər millətlərin ailələrinin tərkibi valideyilərlə birlikdə 5-6 nəfərdən artıq olmurdu. Ona görə də azərbaycanlıların say artımı SSRİ-də yaşayan millətlərin say artımından, Orta Asiya və Qazaxstan Respublikaları kimi, iki dəfə artıq olmuşdur. Paraqrafda Ermənistan SSR-də yaşayan əhalinin yaşına və milliyətinə görə evlənmələri, bağlanan nigahların yaş həddi, millətlərin ana dillərinə görə qruplara bölünməsi və digər məlumatlar yerli mənbələr o, cümlədən ayrı-ayrı arxiv sənədlərindəki faktlar əsasında yalnız ümumi vəziyyətdə göstərilmişdir .Çünki, erməni hakimiyyəti dəqiq statistik məlumat vermək istəmirdi. Çox hallarda azərbaycanlılara aid müsbət məlumatlar bilərəkdən gizlədilirdi.

**«Ermənistan SSR-dən azərbaycanlıların deportasiyasının sonuncu mərhələsi»** adlı dördüncü fəsil iki paraqrafdan ibarətdir. **«Azərbaycanlıların Ermənistan SSR-dən tamamilə köçürülməsinin başa çatdırılması sahəsində tədbirlər»** adlı birinci paraqrafda erməni millətçilərinin «Türksüz Ermənistan» yaratmaq uğrunda sonuncu mərhələsini həyata keçirmək üçün zaman-zaman tarixi Azərbaycan torpaqlarını ələ keçirərək erməniləşdirməsini etnoqrafik materiallar, yerli mənbələr, arxiv materiallar əsasında, rus və sovet tarixçilərinin yazdığı elmi əsərlərinin əsasında araşdırılmış torpaqlarımızın itirilməsinin əsas səbəbləri aydınlaşdırılmışdır.

Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirinin 1954-cü il oktyabrın 14-də Azərbaycan KP MK-ya və respublika Nazirlər Sovetinə yazdığı məktubda

---

[1] Медков В.Демография.РостовнаДону:Феникс,2002.с298.

göstərir ki, 1948-1953-cü illərdə Ermənistan SSR-dən respublikanın Kür-Araz ovalığına 11.914 təsərrüfat (53.000 nəfər)köçürülmüşdür. Əslində «könüllülük» prisipi əsasında köçürülən azərbaycanlıların sayı qat-qat çox olmuşdur.

İkinci paraqrafda **«Ermənistan SSR-də azərbaycanlılara qarşı diskriminasiya siyasəti»** öyrənilmişdir. 1988-ci ilə qədər ermənilərin azərbaycanlılara qarşı apardıqları siyasət onların tədricən azaldılmasına səbəb olmuşdur. SSRİ-də irəli sürülən yenidənqurma siyasəti dövründə Moskvada işlənmiş ssenari üzrə 1988-ci ilin fevral ayından ortaya atılmış Qarabağ oyunu Ermənistan SSR-də erməni-azərbaycanlı qarşıdurmasını daha da kəskinləşdirdi. Bu dövrdə bölgədə hadisələrin sonuncu və qanlı mərhələsi başladı. Azərbaycanlılar rus-erməni silahlı dəstələrinin təzyiqi nəticəsində öz doğma yurdlarından didərgin düşdülər. 1988-1991-ci ilə qədər davam edən soyqırım nəticəsində 240 mindən çox azərbaycanlı qovulmuş, yüzlərlə soydaşımız məhv edilmiş, işgəncə verilmiş, itkin düşmüşdü. Təqribi hesablamalara görə 185 iri yaşayış məntəqəsi boşaldılmışdır. Bu azərbaycanlılara qarşı ermənilərin açıq müharibəsi idi. Paraqrafda həmçinin azərbaycanlılarla birlikdə digər milli azlıqların nümayəndələrinin də ölkə ərazisindən qovulması prosesi sənədlər əsasında öyrənilmişdir.

«Ermənilər üçün sərhəd yoxdur»- ideyası ilə çıxış edən erməni millətçiləri başda daşnak liderləri olmaqla dünyada yaşayan türklərə və azərbaycanlılara qarşı terror təşkilatları yaratmışlar. Yaradılan terror təşkilatların əsas vəzifəsi türkləri və azərbaycanlıları fiziki məhv etməkdir. XIX əsrin sonlarından yaranmağa başlayan erməni terror təşkilatlatları bu günə qədər milyonlarlr türk və azərbaycanlı qanı axıtmışlar. Azərbaycan torpaqlarında «böyük Ermənistan» yaratmaq istəyən erməni millətçiləri XX əsrin əvvəllərində Tiflis şəhərində A.Xatisyanın rəhbərliyi altında Erməni Milli Bürosu yaratmışlar. Yaradılan Milli Büro erməni silahlı dəstələri toplamağa və onlara hərbi dərslər keçməyə başlamışdı. «Könüllülər» adlanan erməni silahlı dəstələrinin sayı 1914-cü ildə 4-ə, onların tərkibindəki silahlıların sayı isə 10 min nəfərə çatmışdır. Əvvəlcədən düşünülmüş plan üzrə yaradılan erməni terror təşkilatları əsasən xarici havadarların hesabına maliyələşdirilir və həmin təşkilatların tərkibində xaricdən gətirilən ermənilər də iştirak edirlər.

Ermənilərin «Qaragin», «Asala», «Daşnakstutyun», «Hnçaq», terror təşkilatlarının fəaliyyəti barədə paraqrafda araşdırmalar aparılmışdır.

Dissertasiyanın **«Nəticə»** hissəsində isə aparılan elmi araşdırmalara yekun vurulmuş, ümumiləşdirmələr edilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Fərəcov Ş.F. 1959-cu il siyahıyaalınması Ermənistan Respublikasında yaşayan azərbaycanlıların demoqrafik vəziyyəti haqqında. Azərbaycan Demokratik Respublikasının yaranmasının 73-cü ildönümünə həsr edilmiş BDU-nun gənc tarixçi tədqiqatçılarının elmi konfransı, Bakı,1991, s.226-228.

2.Fərəcov Ş. F. 1920-ci illərdə Ermənistan SSR-də yaşayan azərbaycanlıların demoqrafik vəziyyəti haqqında . Nizami Gəncəvinin 850 illiyinə həsr edilmiş Azərbaycan tarixi problemləri üzrə gənc tədqiqatçıların birinci Respublika elmi konfransı. Bakı, 1991, s. 260-262

3.Fərəcov Ş.F. 1950-70-ci illərdə Qərbi Azərbaycanda azərbaycanlıların demoqrafik vəziyyəti. Dünya azərbaycanlıları: tarix və müasirlik.Elmi-nəzəri toplu. I buraxılış. Bakı,2003, s. 92-95

4. Fərəcov Ş.F. Ermənistan SSR-də azərbaycanlıların təhsil səviyyəsi / XX-əsrin 20-80-ci illəri/. Tarix və onun problemləri. 2007, №3, s. 281-284

5. Fərəcov Ş.F. Qərbi Azərbaycan əhalisinin tarixi haqqında . Dirçəliş-XXI əsr Bakı, 2008, №126-127, s. 350-355

6. Fərəcov Ş.F. Ermənistan SSR əhalisinin təkrar istehsal məsələsinə dair. Bakı Universitetinin Xəbərləri ,Humanitar elmlər seriyası. 2008, №1 s.116-121

7. Fərəcov Ş.F. Azərbaycanlıların say dinamikası və Ermənistan üzrə yerləşməsi. BDU-nun 90 illik yubileyi münasibətilə Tarix fakültəsi əməkdaşlarının elmi-praktik konfransının materialları. Bakı, 2009, s.218-222

8. Fərəcov Ş.F. Ermənistan SSR-də azərbaycanlılara qarşı soyqırım siyasəti. Dünya azərbaycanlılarının yubiley toplusu, III buraxılış. Bakı, 2009. s. 243-245

9. Fərəcov Ş.F. Azərbaycanda partizan hərəkatını doğuran səbəblər və qaçaq hərəkatı . BDU-nun Xəbərləri, Humanitar elmlər seriyası. Bakı, 2010, №2, s.161-167

10. Фараджов Ш.Ф. X Международный семинар «Этничность и власть: Международные конфликты, терроризм и новые угрозы глобальной безопасности», 12-15 мая 2011 г., г. Ялта, Ливадия, с. 241-244

**Фараджов Ш.Ф.**

**Демографическое положение азербайджанцев в Армянской ССР (1920-1980гг).**

## РЕЗЮМЕ

Диссертационная работа посвящена изучению демографического положения азербайджанцев Армянской ССР в 1920-1980-е гг. XX в.

Диссертация состоит из введения, четырех глав, заключения, списка использованных источников и литературы.

Во введении обосновывается актуальность темы, дается обзор источников и анализ историографии, определяется цель и задачи.

В первой главе диссертации - «Социально-экономическое положение в крае после Октябрьского переворота», состоящей из двух параграфов, проанализирована проармянская политика большевиков по отношению к азербайджанцам. Основываясь на произведениях авторов начала XX века и источниках по истории Западного Азербайджана XIX века, было доказано, что проармянская политика большевиков ничем не отличалась от политики, проводимой царской Россией, а являлась ее продолжением. Определенное место отведено борьбе азербайджанского народа за территориальную целостность страны, а также вопросам, связанным с геноцидом армянского правительства против азербайджанцев в Иреванской губернии и в Зангезурском уезде.

Вторая глава называется «Динамика роста численности и процесс воспроизводства азербайджанцев в Армянской ССР». В этой главе, состоящей из четырех параграфов, изучена динамика роста численности азербайджанцев и их размещение в Армянской ССР. Показано демографическое положение в г. Иреване и уездах Иреванской губернии, а также влияние волны репрессий, охвативших СССР в 30-е годы XX века, на азербайджанцев, живущих в Армянской ССР. Здесь исследованы вопросы, связанные с депортацией сотни тысяч азербайджанцев из Армянской ССР в Азербайджанскую ССР в 1948-1953 гг.

Третья глава, называется «Демографический состав азербайджанцев Армянской ССР». Здесь изучается демографическое положение азербайджанцев живущих в Армянской ССР.

Четвертая глава – «Последний этап депортации азербайджанцев из Армянской ССР», состоит из двух глав. В этой главе исследована политика дискриминации по отношению к азербайджанцам, рассмотрены мероприятия, связанные с окончательным выдворением азербайджанцев из Армянской ССР, со своих исторических территорий.

В заключении диссертации подведены итоги исследования.

**SH.F.Ferecov**

## The demographic situation of Azerbaijanis who Armenian SSR in 1920-1980-ies

## SUMMARY

The thesis is devoted to studying the demographic situation of Azerbaijanis who Armenian SSR in 1920-1980-ies in gg.XX. The thesis consists of an introduction, four chapters, conclusions, bibliographies and literature. In the introduction the relevance of the topic, provides an overview and analysis of the sources of historiography, defined goals and objectives.

In the first chapter of the thesis - "Socio-economic situation in the region after the October Revolution", consisting of two sections, analyzed the pro-Armenian policy of the Bolsheviks against Azerbaijanis. Based on the works of the early XX century authors and sources on the history of Western Azerbaijan XIX century, it was proved that the pro-Armenian policy of the Bolsheviks did not differ from the policy pursued by the tsarist Russia, and was its continuation. Designated given to dealing Azerbaijani people for the country's territorial integrity, as well as issues related to the genocide of the Armenian government against Azerbaijanis in Yerevan province and Zangazur.

The second chapter is entitled "Dynamics of population growth and the reproduction of Azerbaijanis in the Armenian SSR." In this chapter, consisting of four sections, studied growth in the number of Azerbaijanis and their placement in the Armenian SSR. Demographics are shown in Irevan and counties Yerevan province, as well as the influence of the wave of repression that swept the USSR in the 30-ies of XX century, Azerbaijanis living in the Armenian SSR. Here investigated issues related to the deportation of hundreds of thousands of Azerbaijanis from the Armenian SSR to Azerbaijan SSR in 1948-1953 gg.

Consisting of two sections the third chapter,entitled "The demographic composition of Azerbaijanis of the Armenian SSR." In this chapter, we have separated by language groups nationalities considered level of education, family composition Azerbaijanis and representatives of other nationalities living in the Armenian SSR. The fourth chapter - "The last stage of deportation Azerbaijanis from the Armenian SSR," consists of two chapters. In this chapter we studied the policy of discrimination against Azerbaijanis, with regard to activities related to the final expulsion of Azerbaijanis from the Armenian SSR, with its historically territories.

In conclusion, the dissertation summarized research and conclusions.

лента

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**


На правах рукописи


**ШАФАЯТ ФАРАДЖ оглы ФАРАДЖОВ**


# ДЕМОГРАФИЧЕСКОЕ ПОЛОЖЕНИЕ АЗЕРБАЙДЖАНЦЕВ В АРМЯНСКОЙ ССР (1920-1980гг)

Специальнось: 5503.02- Отечественная история

**А В Т О Р Е Ф Е Р А Т**

Диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ- 2014**